AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏHƏRSALMA VƏ TİKİNTİYƏ DAİR NORMATİV SƏNƏDLƏR SİSTEMİ

AzDTN 2.8-5

HEYVANDARLIQ VƏ QUŞÇULUQ MÜƏSSİSƏLƏRİNİN BİNALARI VƏ YERLƏŞGƏLƏRİ. LAYİHƏLƏNDİRMƏ NORMALARI

RƏSMİ NƏŞR

AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT ŞƏHƏRSALMA VƏ ARXİTEKTURA KOMİTƏSİ

BAKI-2026

AzDTN 2.8-5 “Heyvandarliq və quşçuluq müəssisələrinin binalari və yerləşgələri. Layihələndirmə normaları” (Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi-Bakı, 2026-cı il, 26 səh.)

İşləyib: *Azərbaycan İnşaat və Memarlıq Elmi Tədqiqat İnstitutu*

Təsdiqə hazırlayıb və təqdim edib: *Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Texniki normalar, elm və layihəçilərlə iş şöbəsi*

Təsdiq edilib: *Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 29.10.2026-cı il tarixli 3-35/3-2-8/2026 nömrəli qərarı ilə*

Qüvvəya minib: *20.11.2026-cı il tarixdən*

Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi: *15202610290328*

Bu texniki normativ hüquqi akt qüvvəyə mindiyi tarixdən СНиП 2.10.03-84 “Животноводческие, птицеводческие и звероводческие здания и помещения” Tikinti Norma və Qaydalarının Azərbaycan Respublikası ərazisində hüquqi qüvvəsi dayandırılır.

@ AzDŞAK-TN/Q № 0072-2026

HEYVANDARLIQ VƏ QUŞÇULUQ MÜƏSSİSƏLƏRİNİN BİNALARI VƏ YERLƏŞGƏLƏRİ. LAYİHƏLƏNDİRMƏ NORMALARI

1. Tətbiq sahəsi

1.1. Bu Normalar heyvan və quşların saxlanılması üçün yeni tikilən və yenidən qurulan heyvandarlıq və quşçuluq müəssisələrinin bina və tikililərinin layihələndirməsinə şamil edilir.

2. Normativ istinadlar

Bu Normalarda aşağıda göstərilən normativ sənədlərə istinad edilib:

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi;

Azərbaycan Respublikasının Su Məcəlləsi;

“Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Atmosfer havasının mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanunu;

“Dövlət baytarlıq nəzarətinə cəlb edilən məhsulların istehsalı, tədarükü, saxlanması, emalı və satışı, habelə daşınması ilə bağlı dövlət baytarlıq nəzarəti obyektlərinin yerləşdirilməsi, tikintisi, bərpası və istismara verilməsi Qaydası” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.09.2006-cı il tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmişdir);

“Atmosfer havasına atılan zərərli maddələrin və ona zərərli fiziki təsirlərin dövlət uçotu Qaydaları" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.07.2002-ci il tarixli 112 nömrəli Qərarı ilə təsdiq edilmişdir);

“Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları” (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.03.2000-ci il tarixli 56 nömrəli Qərarı ilə təsdiq edilmişdir);

“Elektrik qurğularının quraşdırılması Qaydaları” (Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyasının 27.06.2024-ci il tarixli 3-15/3-1-4/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir);

“Tikinti obyektlərinin sahəsinin və həcminin hesablanması Qaydaları” (Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 04.12.2012-ci il tarixli 07 nömrəli Qərarı ilə təsdiq edilmişdir);

AzDTN 2.1-1	Yüklər və təsirlər. Layihələndirmə normaları;
AzDTN 2.5-1	İnşaat konstruksiyalarının korroziyadan mühafizəsi. Layihələndirmə normaları;
AzDTN 2.6-1*	Dövlət Şəhərsalma Norma və Qaydaları. Şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin planlaşdırılması və tikilib abadlaşdırılması;
AzDTN 2.6-4	Kənd təsərrüfatı müəssisələrinin baş planları. Layihələndirmə normaları;
AzDTN 2.6-5	Bina və qurğuların layihələndirilməsində əlilliyi olan şəxslər üçün zəruri olan həyat və fəaliyyət şəraitinin yaradılması qaydaları;
AzDTN 2.8-2	İstehsalat binaları. Layihələndirmə normaları;
AzDTN 2.11-2	Kanalizasiya. Xarici şəbəkə və qurğular;
AzDTN 2.11-3*	Binaların daxili su təchizatı və kanalizasiyası. Layihələndirmə normaları;
AzDTN 2.12-1	Qazanxana qurğuları. Layihələndirmə normaları;
AzDTN 2.12-2*	İsitmə, ventilyasiya, havanın kondisiyalaşdırılması. Layihələndirmə normaları;
AzDTN 2.12-3	İstilik şəbəkələri. Layihələndirmə normaları;
AzDTN 2.12-4*	Binaların istilik mühafizəsi. Layihələndirmə normaları;
AzDTN 2.21-1	Döşəmələr. Layihələndirmə normaları;
DTN 2.02-01-97	Bina və qurğuların yanğın təhlükəsizliyi;
DTN 2.04-05-95	Təbii və süni işıqlandırma;
TNvəQ 2.04.09-84	Bina və qurğuların yanğın avtomatikası;
TNvəQ 2.09.04-87*	İnzibati və məişət binaları;
SQ № 1896-78	Heyvandarlıq komplekslərində və fermalarda əldə edilən peyinin kənarlaşdırılması, emalı, zərərsizləşdirilməsi və utilizasiyası üçün texnoloji xətlərinin qurulmasına dair baytarlıq-sanitariya və gigiyenik tələblər;
SQ № 4542-87	Heyvandarlıq müəssisələri üçün sanitariya qaydaları;

SQ № 4723-88	Mərkəzləşdirilmiş isti su təchizatı sisteminin istismarının və qurulmasının sanitariya qaydaları;
TLÜN 24-86	Partlayış təhlükəliyinə və yanğın təhlükəliyinə görə bina və yerləşgələrin kateqoriyasının müəyyən edilməsi;
AZS ГОСТ 27751:2025	İnşaat konstruksiyalarının və qrunt əsaslarının etibarlılığı. Əsas müddəalar;
DÜİST 23838-89	Müəssisələrin binaları. Parametrlər;
DÜİST 31189-2015	Quru tikinti qatışıqları. Təsnifat.

Qeyd: *Mötərizələrdə göstərilən işarələnmələr aşağıdakı kimi oxunur:*

AzDTN - Azərbaycan Dövlət Tikinti Normaları;

TNvəQ – Tikinti Norma və Qaydaları;

DTN – Dövlətlərarası Tikinti Normaları;

SQ – Sanitariya Qaydaları;

AZS – Azərbaycan Respublikasının Dövlət Standartı;

TLÜN – Texnoloji layihələndirmə üzrə ümumittifaq normalar;

DÜİST – Dövlət Ümumittifaq Standartı (Dövlətlərarası Standart).

A, B, V, Q və D – TLÜN 24-86-ya uyğun olaraq yanğından yüksək partlayış təhlükəliliyi, yanğından partlayış təhlükəliliyi, yanğın təhlükəliliyi, orta yanğın təhlükəliliyi və zəif yanğın təhlükəliliyi kateqoriyalarının latın hərfləri ilə işarələri.

3. Əsas anlayışlar

Bu Normalarda aşağıdakı əsas anlayışlardan istifadə edilmişdir:

dezinfeksiya - xəstəlik törədən mikroorqanizmlərin kimyəvi maddələr vasitəsilə məhv edilməsi;

bloklar, qəfəslər, burdaqlar, tövlə bölmələri və bokslar - heyvan və quşların saxlanılması üçün texnoloji avadanlıqlarla məhdudlaşan heyvandarlıq və quşçuluq müəssisələrinin binadaxili sahələri;

heyvandarlıq və quşçuluq müəssisələri - kənd təsərrüfatı heyvan və quşlarının saxlanıldığı, yetişdirildiyi və istifadə olunduğu heyvandarlıq məhsulu istehsalı ilə məşğul olan təsərrüfatlar;

gəzinti meydançası - adətən heyvandarlıq binalarının uzununa tərəfi boyu yerləşən və ilin müxtəlif dövrlərində heyvanların gəzintisi üçün nəzərdə tutulan bərk və ya qrunt örtüklə döşənmiş hasarlanan sahə. Bir baş heyvana düşən sahə texnoloji layihələrlə müəyyən olunur;

manej - atçılıq idmanı və ya atçılıq zavodunda atçılıq üzrə istehsalat işləri üçün nəzərdə tutulan xüsusi sahə. Manejin bütün sahəsində sütun və arakəsmələr olmamalıdır;

suvat - heyvanların və quşların su içdikləri dayaz yer, həmçinin içinə su doldurulan müxtəlif materiallardan düzəldilmiş qurğu;

yerləşgə - heyvandarlıq və quşçuluq binalarının daxilində, xaricində və ya onlara bitişik yerləşən, funksional təyinatına görə əsas və yardımçı hissələrə (tövlə, sağımxana, doğumxana, buzovxana, quşxana, inkubator və inkubasiya zalları, anbar, yem sexi, texnika parkı, müalicəxana, təcridxana, sanitariya buraxılış məntəqəsi, kəsimxana, krematoriya və s.) bölünən sahə və otaqlar.

4. Ümumi müddəalar

4.1. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin, eləcə də onların ərazilərinin layihələndirilməsi, tikintisi və yenidən qurulması "Sanitariya-epidemioloji salamatlıq haqqında" və "Baytarlıq haqqında" Azərbaycan Respublikasının qanunlarının, "Dövlət baytarlıq nəzarətinə cəlb edilən məhsulların istehsalı, tədarükü, saxlanması, emalı və satışı, habelə daşınması ilə bağlı dövlət baytarlıq nəzarəti obyektlərinin yerləşdirilməsi, tikintisi, bərpası və istismara verilməsi Qaydası"nın, həmçinin AzDTN 2.6-4-ün tələblərinə uyğun həyata keçirilməlidir.

4.2. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin layihələndirilməsində aşağıdakılara əməl olunmalıdır:

- tikintinin bütün mərhələlərində və istismarında binanın, həmçinin onun ayrı-ayrı elementlərinin lazım olan möhkəmlik, sərtlik və məkan dəyişməzliyini bütövlükdə təmin edən konstruktiv sxemlərinin qəbul edilməsi;
- konstruktiv həllərdə ekoloji tələblərə cavab verən inşaat materiallarının tətbiq olunması;
- bir meydançada yerləşdirilən binalar üçün inşaat məmulatlarının və materiallarının seçilməsində mövcud standartlaşdırma sisteminin tələblərinin yerinə yetirilməsi.

4.3. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin partlayış-yanğın və yanğın təhlükəsi kateqoriyaları TLÜN 24 üzrə müəyyən edilir. Mərtəbələrinin sayı, odadavamlılıq dərəcəsi və yanğınəleyhinə divarlar arasındakı mərtəbə sahəsi cədvəl 1-ə uyğun olaraq qəbul edilir.

Cədvəl 1

İstehsalatın kateqoriyası (yanğın-partlayış təhlükəliyinə görə)	Mərtəbələrin yolverilən sayı	Binaların odadavamlılıq dərəcəsi	Binanın yanğın əleyhinə divarları arasında mərtəbə sahəsi, m^2	
			birmərtəbəli	çoxmərtəbəli
V	9	II	məhdudlaşdırılmır	
	3	III	3000	2000
	2	IV	2000	1200

	1	V	1200	-
D	məhdudlaşdırılmır	II	məhdudlaşdırılmır	
	3	III	5200	3500
	2	IV	3500	2000
	1	V	2000	-
Qeyd. *Texnoloji layihələndirmə tələblərinə görə istehsalın yanğın-partlayış təhlükəliyinə görə "V" kateqoriyası üçün V odadavamlılıq dərəcəli birmərtəbəli binaların yanğınəleyhinə divarları arasında quş və qoyunların saxlanılması üçün sahənin 1800 m²-ə qədər artırılmasına yol verilir.*				

4.4. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarının ümumi sahəsi "Tikinti obyektlərinin sahəsinin və həcminin hesablanması Qaydaları"nın tələblərinə uyğun olaraq müəyyən edilməlidir.

4.5. Heyvandarlıq və quşçuluq müəssisələrinin inzibati və məişət binalarının, həmçinin heyvandarlıq və quşçuluq binalarının tərkibinə daxil olan inzibati və məişət otaqlarının layihələndirilməsi TNvəQ 2.09.04-ün və SQ № 4542-nin tələbləri üzrə aparılmalıdır.

4.6. Layihələndirilən heyvandarlıq və quşçuluq müəssisələrinin bina və qurğularının məsuliyyət səviyyəsi AZS ГОСТ 27751 dövlət standartına uyğun olaraq sifarişçi və layihəçi tərəfindən müəyyən edilir.

4.7. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin layihə tapşırığında əlilliyi olan şəxslərin əməyindən istifadə edilməsi nəzərdə tutulduqda AzDTN 2.6-5-in tələbləri rəhbər tutulmalıdır.

4.8. Heyvandarlıq və quşçuluq müəssisələri layihələndirilərkən sanitariya mühafizə zonasının eni nəzərə alınmaqla orada saxlanıla bilən heyvan və quşların kəmiyyət meyarlarının müəyyən edilməsi, enerji resurslarının qənaətlə sərf olunması və enerji istehlakının azaldılması, habelə bina və qurğuların qoruyucu konstruksiyalarının normativ istilik-mühafizə xüsusiyyətlərinin təmin olunması qüvvədə olan şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğun həyata keçirilməlidir.

Müəssisələrin istehsal gücü, heyvan baş sayı və digər kəmiyyət parametrlərinin texnoloji tapşırıq, sahə metodik sənədlər və ya sifarişçinin göstəriciləri əsasında müəyyənləşdirilməsinə yol verilir.

4.9. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və qurğularının inşaat konstruksiyalarının (beton, dəmir-beton, polad, alüminium, ağac, daş) aqressiv mühitlərin təsirindən müdafiəsinin layihələndirilməsində AzDTN 2.5-1-in tələbləri təmin edilməlidir.

5. Həcm-planlaşdırma və konstruktiv həllər

5.1. Heyvandarlıq və quşçuluq müəssisələrinin binaları qabarit ölçülərinə görə texnoloji proseslərin tələblərinə cavab verməlidir. Onlar eni və hündürlüyü eyni olan paralel yerləşən

aşırımlarla, planda düzbucaq formalı, birmərtəbəli layihələndirilməlidir. İki qarşılıqlı perpendikulyar istiqamətdə aşırımları olan, həmçinin aşırımlarının eni və hündürlüyü müxtəlif olan binaların layihələndirilməsinə yalnız müvafiq əsaslandırma olduqda yol verilir. Çoxaşırımlı binanın eyni istiqamətdə yerləşən aşırımları arasında hündürlük fərqinə yol verilmir.

Müvafiq əsaslandırma olduqda donuz və quşların saxlanılması üçün binaların çoxmərtəbəli layihələndirilməsinə yol verilir.

Qeyd. *Qoyunların saxlanılması üçün yerli inşaat materiallarından (daş, kərpic, qamış, çiy kərpic və s.) tikililərin layihələndirilməsinə istənilən formada yol verilir.*

Donuz və quşların saxlanılması üçün nəzərdə tutulan binaların ölçüləri və mərtəbəliliyi heyvan və quşların müxtəlif enə və mərtəbə sayına malik binalarda saxlanılması variantlarının texniki-iqtisadi müqayisəsi əsasında müəyyən edilməlidir.

Bu binaların tikinti həlləri və mühəndis avadanlıqları binadaxili havanın temperatur və nisbi rütubət göstəricilərinin sabit saxlanılmasını təmin etməlidir. Binadaxili havanın temperatur və nisbi rütubət göstəriciləri müxtəlif heyvan və quş növlərinin xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilməlidir. Temperatur və nisbi rütubət rejimləri normalaşdırılmayan yerləşgələr istisna olmaqla, divarlarda və örtükdə kondensatın əmələ gəlməsinə yol verilmir. Bina və yerləşgələrin inşaat konstruksiyaları möhkəm, uzunömürlü, odadavamlı olmalı, həmçinin qanunvericiliklə müəyyən edilən qaydada təsdiq edilmiş zoogigiyenik tələblərə cavab verməlidir. Bir qayda olaraq, bir binada istehsalat, köməkçi və anbar təyinatlı sahə və otaqların yerləşdirilməsi nəzərdə tutulmalıdır.

Heyvandarlıq və quşçuluq müəssisələri (kompleksləri) üçün sanitariya mühafizə zonalarının ölçüləri müəyyənləşdirilərkən AzDTN 2.6-4-ün tələbləri nəzərə alınmalıdır.

5.2. Heyvandarlıq və quşçuluq müəssisələrinin binaları layihələndirilərkən binaların parametrləri və sxemləri DÜİST 23838 üzrə qəbul olunmalıdır.

5.3. Təmiz döşəmə səviyyəsindən çıxıntılı konstruksiyalarının aşağısına qədər yerləşgələrin hündürlüyü aşağıda göstərilən heyvanların saxlanıldığı binalarda az olmamalıdır:

- iri buynuzlu heyvanlar üçün - 2,4 m (heyvanlar qalın döşənəkdə saxlanıldıqda - 3,3 m);

- donuzlar, qoyunlar, keçilər üçün - 2,4 m;

- cins atlar yetişdirilən müəssisələrin tövlələrində - 3,5 m;

- işçi və satış atları üçün - 2,5 m;

- atların yəhərlənməsi, qoşulması, cavan atların gəzdirilməsi, madyanın sınaqdan keçirilməsi və cütləşdirilməsi, həmçinin məşqi və sınağı üçün manejlərdə - 4,5 m;

- cins dəvələr üçün - 3,0 m;

- satış dəvələri üçün - 2,7 m;

- quşların döşəmədə saxlanılması üçün yerləşgələrdə, quşların qəfəsdə saxlanıldığı zallarda, inkubator və inkubasiya zallarında - 3,0 m.

Qeyd. *Qoyunçuluq binalarında yamaclı dam konstruksiyası quraşdırılmış boyuna divarların yanında təmiz döşəmə səviyyəsindən çıxıntı konstruksiyasının aşağısına qədər hündürlüyün 1,5 m-ə qədər azaldılmasına yol verilir.*

5.4. Təmiz döşəmə səviyyəsindən pəncərə oyuqlarının aşağısına qədər hündürlük aşağıda göstərilən heyvanların saxlanıldığı yerləşgələrdə aşağıdakılardan az olmamalıdır:

- iri buynuzlu heyvanlar üçün - 1,2 m (heyvanlar qalın döşənəkdə saxlanıldıqda – 2,4 m);

- tövlələrdə atlar üçün - 2,2 m;

- keçidləri uzununa divarlar boyunca olmaqla binanın ortasında yerləşən bölməli tövlələrdə atlar üçün - 1,5 m;

- süni mayalanma məntəqəsinin manejində atlar üçün - 1,5 m;

- qoyunlar üçün - 1,0 m, döşənək tətbiq olunduqda - 1,2 m-dən az olmamaqla, qalın döşənək tətbiq olunduqda - 1,8 m;

- donuzlar üçün - 1,2 m;

- keçilər üçün - 1,6 m (döşənək tətbiq olunduqda 1,8 m, qalın döşənək tətbiq olunduqda 2,4 m);

- dəvələr üçün - 1,8 m;

- döşəmə üzərində və qəfəslərdə saxlanılan quşlar üçün - 1,5 m-dən.

5.5. Bütün növ heyvandarlıq binalarında döşəmədən asma avadanlıq və kommunikasiya konstruksiyalarının aşağısına qədər yerləşgələrin hündürlüyü 2,0 m-dən, quşçuluq binalarında insanların müntəzəm keçid yerlərində 2,5 m-dən və insanların qeyri-müntəzəm keçid yerlərində isə 1,8 m-dən az olmamalıdır.

5.6. Qaba yemlərin və döşənəyin saxlanılması üçün nəzərdə tutulmuş çardaq yerləşgələrinin xalis hündürlüyü çardağın orta hissəsində və örtükdə yerləşən bacaların olduğu yerlərdə 1,9 m-dən az olmamalıdır.

5.7. Heyvandarlıq və quşçuluq müəssisələrinin binaları yığma yükdaşıyan və qoruyucu konstruksiyalar tətbiq edilməklə karkaslı layihələndirilməlidir. Yerli inşaat materiallarından monolit konstruksiyaların və məmulatların tətbiqinə yol verilir.

Qeyd. *İnşaat konstruksiyalarının və onların üzlük və mühafizə örtük materialları heyvanlar və quşlar üçün zərərsiz olmalıdır.*

5.8. Buxar izolyasiya təbəqəsi il ərzində rütubətin dam örtüyü konstruksiyasında toplanmasına yol vermədikdə heyvandarlıq və quşçuluq binalarının nəmli və ya yaş rejimli yerləşgələrinin üzərində havalanmayan dam örtüklərinin quraşdırılmasına yol verilir.

5.9. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarından suların axıdılması daxili novlarsız layihələndirilir. Örtüyün eni 36 m-dən çox olan (birtərəfli mailli) binalarda suların axıdılmasının daxili novlarla layihələndirilməsinə yol verilir.

5.10. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarında döşəmələr və gəzinti meydançalarında bərk örtüklər AzDTN 2.21-1-in və SQ № 4542-nin tələbləri üzrə layihələndirilməlidir.

Döşəmələr sürüşkən, aşındırıcı, kimyəvi cəhətdən zəhərli olmamalı, az istilik keçiricili, sukeçirməyən (W12-W16), axan mayenin və dezinfeksiya vasitələrinin təsirlərinə qarşı dayanıqlı olmalıdır.

Konstruksiyanın sukeçirməzliyi beton qarışığında betonun sukeçirməzlik üzrə W12-W16 markalarından istifadə edilməklə, həmçinin betonlanma tikişlərini və çatlarını DÜİST 31189 üzrə hidroizolyasiya qatışığı ilə kipləşdirilməklə təmin olunmalıdır.

Heyvanların döşənəksiz saxlandığı istirahət yerlərində döşəmənin yuxarı qatı döşəmə səthinin istiliyi mənimsəmə göstəricilərinə əsasən müəyyən edilməlidir.

Döşəmə səthinin istilik mənimsəmə göstəricisi heyvanların növündən asılı olaraq aşağıdakı kimi olmalıdır:

- doğumuna 2-3 ay qalmış inək və düyələr, damazlıq buğalar, 6 aya qədər danalar, iri buynuzlu cavan heyvanlar, anac donuz, qaban, ayrılan donuz balaları üçün nəzərdə tutulmuş döşəmələr üçün - 11Vt/(M,℃);

- boğaz inəklər, cavan donuzlar, kökəlmədə olan donuz və iri buynuzlu heyvanlar üçün nəzərdə tutulmuş döşəmələr üçün - 13Vt/(M,℃);

- qoyunlardan başqa bütün heyvanlar üçün nəzərdə tutulmuş döşəmələr üçün - 16Vt/(M,℃).

Heyvandarlıq və quşçuluq binalarındakı döşəmələrin istilik texnikası xüsusiyyətləri döşəmə ilə təmasda heyvanların bədəninin istilik itkisinin yol verilən zoogigiyenik səviyyədən artıq olmamasını təmin etməlidir.

5.11. Heyvanların və quşların saxlanıldığı yerlərdə döşəmələr baytarlıq-sanitariya norma və qaydalarının tələblərinə uyğun olaraq barmaqlıqlı sistemlə təchiz edilməli və ya döşəməaltı boşluqların yaranmasına yol verilməməlidir. Donuz balalarının saxlanıldığı yerlərdə döşəmənin hava vasitəsilə qızdırılması məqsədilə istifadə edildiyi hallarda, boşluqları olan yanmayan materiallardan hazırlanmış döşəmələrin qurulmasına yol verilir.

5.12. Maye ilə sistemli isladılan döşəmələr maili layihələndirilməlidir.

Döşəmə, nov və kanalların mailliyi baytarlıq-sanitariya norma və qaydaları nəzərə alınaraq layihələndirilməlidir: qəfəslərdə quşlar saxlanılan yerlərin döşəmələrində və bütün yerləşgələrdə keçidlər boyu novlarda maillik 0,005-dən, heyvandarlıq yerləşgələrinin texnoloji elementlərində (burdaqda, bokslarda, tövlə bölmələrində, bloklarda və s.) və eninə keçidlərdə maillik 0,015-dən az olmamalıdır. Peyinin mexanizmlərlə kənarlaşdırılması üçün barmaqlıqlı döşəmə və kanallar (novlar) mailsiz layihələndirilməlidir.

Heyvanlar və quşların gəzinti meydançalarında örtüyün və binalar arasında keçid qalereyalarında (heyvanların keçməsi üçün) döşəmənin mailliyi 0,06-dan, pandus və yükləmə ramplarında isə 0,15-dən çox olmamalıdır.

Kombinə edilmiş döşəməli qəfəs qruplarında barmaqlıq ilə örtülən peyin kanalı istiqamətində bütöv döşəmənin mailliyi peyin-yemləmə meydançasında 0,08-0,09, yuvada (yataqda) isə 0,06 olmalıdır.

Heyvanların saxlanıldığı boksların və keçidlərin döşəmələrindən istilik ötürülməsinin azaldılması, habelə boks örtüklərinin gigiyenik xüsusiyyətlərinin yaxşılaşdırılması məqsədilə rezin ayaqaltılar, həsir və ya digər istilikizolyasiyaedici örtüklər tətbiq edilməlidir.

5.13. Metal tora malik döşəmənin tirlərinə şaquli yüklər texnoloji həllər əsasında layihə tapşırığı ilə müəyyən edilir. Barmaqlıqlı döşəmə oturan konstruksiyanın yüklərə hesablanması AzDTN 2.1-1-in tələblərinə uyğun olaraq nəzərə alınmalıdır.

Barmaqlıqlı döşəmənin konstruksiyasının hesablanmasında dinamiklik əmsalı 1,2 qəbul edilir.

Barmaqlıqlı döşəmənin elementlərinin ölçüləri heyvanların növü və yaşından asılı olaraq layihələndirmə normalarına əsasən təyin edilir.

5.14. Yerləşgələrin texnoloji elementlərinin (burdaqlar, bölməli tövlələr, bloklar, bokslar, şöbələr) və gəzinti meydançalarının çəpərlənməsi zavod istehsalı məmulatlardan yığma olmalıdır.

5.15. Heyvandarlıq və quşçuluq binalarının inşaat və boya materiallarına, konstruktiv elementlərinə olan tələblər (yüksək rütubətin və dezinfeksiya vasitələrinin təsirinə davamlılıq), həmçinin sağımxanaların, südün emalı və saxlanılması otaqlarının, inkubator və inkubasiya zallarının, yuma zallarının, laboratoriyaların, heyvanların süni mayalandırılması və yem hazırlanması otaqlarının divarlarının 1,8 m hündürlükdə rütubətədavamlı materiallarla üzlənməsi və ya boyanması baytarlıq-sanitariya norma və qaydaları nəzərə alınmaqla yerinə yetirilməlidir.

Heyvandarlıq və quşçuluq yerləşgələrinin layihələndirilməsində polimer materiallar və konstruksiyalar texnoloji layihə tapşırığına əsasən tətbiq olunmalıdır.

5.16. Binanın qoruyucu konstruksiyalarının inşaat istilik-texnikası hesablamaları AzDTN 2.12-4* normativ sənədinin tələblərinə uyğun olaraq yerinə yetirilməlidir. Bu zaman qoruyucu konstruksiyaların daxili səthinin istilikvermə əmsalı aşağıdakı kimi qəbul olunmalıdır: döşəmə sahəsinin hər kvadrat metrinə düşən heyvanların diri kütləsi 80 kq-dan çox olan heyvanların saxlanıldığı yerləşgələrin divarları üçün 12 Vt/(m^2·°C) [10 kkal/(m^2·st°C)]; döşəmə sahəsinin hər kvadrat metrinə düşən heyvanların diri kütləsi 80 kq və daha az olan heyvanların saxlanıldığı yerləşgələrin divarları və bütün heyvandarlıq və quşçuluq binalarının tavanları (çardaq və ya dam örtüyü) üçün 8,7 Vt/(m^2·°C) [7,5 kkal/(m^2·st°C)].

Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarının xarici qoruyucu konstruksiyalarının, qapılarının, darvazalarının inşaat istilik-texnikası hesablanması ilə müəyyən olunan istilik ötürməyə müqavimətləri texniki-iqtisadi şərtlərdən asılı olaraq konkret tikinti obyektləri üçün dəqiqləşdirilməlidir.

6. Su kəməri və kanalizasiya

6.1. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin daxili soyuq su təchizatı və kanalizasiya sistemləri bu Normaların və AzDTN 2.11-3*-ün tələbləri nəzərə alınmaqla layihələndirilməlidir.

6.2. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrində heyvan və quşların suvarılması, yemin hazırlanması, südün sağılması və ilkin emalı, heyvanların yuyulması, sağım qurğularının, avadanlıqların, süd rezervuarlarının və qabların sanitariya işlənməsi, südün soyudulması, döşəmələrin yuyulması, heyvanların duracaq yerləri və ya bokslarının təmizlənməsi, avadanlıqların soyudulması və yuyulması məqsədilə içməli su keyfiyyətinə malik suyun verilməsini təmin edən istehsalat su kəməri layihələndirilməlidir.

Yuxarıda adıçəkilən tələbatlar üçün içməli suyun əldə edilməsi mümkün olmayan ərazilərdə suyun keyfiyyəti (süd avadanlıqlarının soyudulması və yuyulması üçün su istisna olunmaqla) dövlət sanitariya-epidemioloji və baytarlıq nəzarəti orqanlarının tələblərinə uyğun olaraq qəbul edilə bilər.

Qeyd. *İlin soyuq dövründə heyvanlara verilən suyun temperaturu yaşlı heyvanlar üçün 10−12℃, cavan heyvanlar üçün isə yaşından asılı olaraq 16−30℃ intervalında qəbul olunmalıdır.*

6.3. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələri suvatlarla, döşəmələrin yuyulması üçün kran və xüsusi cihazlarla təchiz olunmalıdır. Quşçuluq binalarında döşənəyin və peyinin maşınla təmizlənməsi zamanı axar su suvarıcı qurğularının quraşdırılma səviyyələrinin dəyişdirilməsi və ya sökülməsi lazım olduqda bu qurğular daxili su kəmərləri və kanalizasiya sistemlərinə çevik borularla birləşdirilməlidirlər.

6.4. Su təchizatı şəbəkəsinin at tövlələrinin qızdırılmayan yerləşgələrindən qızdırılan yerləşgələrinə keçən xətlərində bağlayıcı ventillər nəzərdə tutulmalıdır. Qızdırılan sahələrin hüdudlarından kənarda, donma riski olan hissələrdə isə xətlərin boşaldılması üçün drenaj (boşaltma) kranları və ya birləşdirici ventillər quraşdırılmalıdır. At tövlələrində qızdırılan yerləşgələr olmadıqda donmayan tipli su kolonkaları nəzərdə tutulmalıdır.

İlin soyuq dövrlərində daxili havasının temperaturu daimi olaraq müsbət 2℃-dən yuxarı olan tövlələrdə suyu suvatlara çəkməklə daxili su kəmərinin nəzərdə tutulmasına yol verilir.

Atların suvarılması üçün tövlələrdə heyvanların həddən çox su içməsinin qarşısını almaq məqsədi ilə suyu bağlayan xüsusi ventilli avtomat suvatlar nəzərdə tutulmalıdır.

Dəvələrin saxlanılması üçün binalarda bir aya qədər köşəkləri (dəvə balaları) olan dəvələrin saxlanılma yerlərində, sağım bölmələrində, kəsmik, qaymaq, qatıq və s. kimi süd məhsullarının hazırlanması sexlərində daxili su kəməri çəkilməsinə yol verilir.

Avtomat suvatlarla heyvanların suvarılması üçün suyun hesablama sərfi 1 nömrəli Əlavəyə uyğun olaraq müəyyən edilməlidir.

6.5. İntensiv əsaslı heyvandarlıq təsərrüfatlarında qoyunların saxlanılması üçün nəzərdə tutulan binalar daxili su təchizatı kəmərləri ilə təchiz olunmalıdır.

Otlaq əsaslı və mövsümi (ənənəvi) qoyunçuluq təsərrüfatlarında qoyun saxlanılan binaların daxili su təchizatı kəmərləri ilə təchiz olunmamasına yol verilir. Bu binalarda saxlanılan qoyunların suvarılması üçün gəzinti-yemləmə meydançalarında quraşdırılan qrup suvatlarına suyun verilməsi nəzərdə tutulmalıdır. Quzulama üçün nəzərdə tutulan bölmələrə, yataqlara və anacların sağılması üçün sağımxanalara su kəmərinin çəkilməsi nəzərdə tutulmalıdır.

Keçilərin saxlanılması üçün nəzərdə tutulan binalarda daxili su kəmərləri, daxili havanın temperaturunun müsbət göstəriciləri saxlanıldığı yerləşgələrdə quraşdırılmalıdır.

6.6. Birmərtəbəli heyvandarlıq və quşçuluq müəssisələrinin binalarında bu Normaların 6.7-ci bəndində göstərilənlər istisna olmaqla, daxili yanğın əleyhinə su kəməri nəzərdə tutulmalıdır.

6.7. Yanar materiallardan hazırlanmış qəfəslərdə quşların saxlanılması üçün nəzərdə tutulmuş binalarda, binanın və ya onun yanğın əleyhinə divarlar arasındakı hissəsinin tutumu 25000 baş quşdan artıq olduqda, qaba yem və yanar döşənəyin saxlanılması üçün çardaqları olan heyvandarlıq və quşçuluq binalarında yanğın əleyhinə divarlar arasındakı çardağın sahəsi 2000 m² və ya daha çox olduqda, donuzların və quşların saxlanılması üçün nəzərdə tutulmuş iki və daha çox mərtəbəli binalarda, həmçinin sahəsi 10000 m²-dən çox olan və "V" kateqoriyalı istehsalatın yerləşdiyi birmərtəbəli çoxaşırımlı binalarda suyun hesablama sərfi 2,5 l/san (bir şırnaq) olan yanğın əleyhinə daxili su kəməri nəzərdə tutulmalıdır.

6.8. Su kəmərlərində suyun sərbəst təzyiqi axarlı və qruplu suvatlarda 2 m-dən (0,2 atm) az olmayaraq, avtomat suvatlarda isə istehsalçı zavodun təlimatı əsasında qəbul olunmalıdır.

6.9. Bina və yerləşgələrdə su kəməri borularının çəkilişi açıq şəkildə divarlar və sütunlar boyunca, həmçinin stasionar yemliklər, qəfəslər, burdaqlar və tövlələrin fərdi bölmələrinin, digər daimi hasarların üzəri ilə nəzərdə tutulmalıdır.

Heyvanların və quşların gəzinti yerlərində quraşdırılan suvatlara su boru kəmərlərini çəkməklə onların suvarılması nəzərdə tutulmalıdır. Bu zaman peyin ilə təmasda mexaniki təsirlər, eləcə də peyinin təmizlənməsinə və ya yemin daşınmasına çətinlik olan yerlərdə, həmçinin heyvanların keçidlərinin olduğu yerlərdə su boru kəmərlərinin çəkilişinə yol verilmir.

6.10. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarında döşəmələrin yuyulması məqsədilə istehsalat su kəməri şəbəkəsində təsir radiusu 30 m və çiləyicidə təzyiqi 5 m-dən az olmamaqla kranların qoyulması nəzərdə tutulmalıdır.

6.11. Yanğınəleyhinə tutumların (rezervuarların, hovuzların) su ilə doldurulması üçün binaların daxili su kəmərinin giriş hissəsində yanğın şlanqlarının qoşulması üçün diametri 50 mm olan birləşdirici başlıqlar nəzərdə tutulmalıdır.

6.12. Heyvandarlıq və quşçuluq binalarının istehsalat su kəmərləri üçün içməli su kəmərlərində istifadəsinə yol verilən plastik borular və nazikdivarlı sinklənməmiş polad borular tətbiq edilməlidir.

6.13. Heyvandarlıq və quşçuluq müəssisələri tərəfindən ümumi su sərfinə nəzarət olunması üçün su kəmərinin girişində su sayğacının qurulması nəzərdə tutulmalıdır.

6.14. Su kəməri şəbəkəsindəki aşağıdakı yerlərdə bağlayıcı ventilin quraşdırılması nəzərdə tutulmalıdır: su kəmərinin binaya girişində, magistraldan şaxələnmələrdə, qrup suvatlarında, texnoloji avadanlıqlara və heyvanın yelinin yuyulması üçün torlara gedən su borularının üstündə.

Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin su kəməri şəbəkəsində boru kəmərlərinin boşaldılması üçün suburaxıcı qurğular nəzərdə tutulmalıdır.

6.15. Heyvanların saxlanıldığı binadaxili sahələrin kanalizasiya sistemləri texnoloji proseslərin, sanitariya-gigiyena və baytarlıq-sanitar tələblərinin təmin edilməsi məqsədilə AzDTN 2.11-2-yə müvafiq layihələndirilməlidir.

Heyvan saxlanılan binadaxili sahələrdə bir qayda olaraq ənənəvi azsulu və mexaniki təmizləmə əsaslı heyvandarlıq texnologiyaları tətbiq edildikdə (əsas istehsalat tullantıları maye axın kimi deyil, bərk və ya yarımbərk peyin kütləsi kimi qəbul edilir və onların mexaniki üsullarla kənarlaşdırılması nəzərdə tutulur), su istifadəsi ilə müşayiət olunan texnoloji proseslər üçün lokal daxili kanalizasiya sisteminin layihələndirilməməsinə yol verilir.

6.16. Heyvandarlıq və quşçuluq müəssisələrinin binadaxili sahələrinin kanalizasiya sistemləri aşağıdakıların kənarlaşdırılmasını nəzərdə tutmalıdır:

a) heyvanların yuyulmasından, heyvanların saxlandığı sahələrin və yerlərin, süd sağımı zallarının və meydançaların yuyulub təmizlənməsindən, avadanlıqların yuyulmasından (qablar, cihazlar, süd boruları və s.) yaranan suların, həmçinin quşxanalarda axar su suvatlarından axan istehsalat çirkab sularının;

b) sanitariya cihazlarından axan təsərrüfat-məişət sularının.

6.17. Quşların qəfəsdə saxlanılması üçün istifadə edilən birmərtəbəli quşçuluq binalarında istehsalat çirkab sularının (döşəmələrin, avadanlıqların və s. yuyulmasından) üstü açıq novlarla toplanıb su qapanlarına ötürülməsinə yol verilir. Novların ölçüləri hesablama ilə təyin olunur, lakin bütün hallarda onların dərinliyi 120 mm-dən çox, eni isə 100 mm-dən az olmamalıdır.

6.18. Quşçuluq binalarında quraşdırılan axar su suvatlarından gələn çirkab sularının magistral buraxılışlarında tük və lələklərin tutulması üçün qurğular nəzərdə tutulmalıdır.

6.19. Südün qəbulu, nəqli və emalı üçün texnoloji avadanlıq, həmçinin süd qablarını yuyan maşınlar axının kəsilməsi 20 mm-dən az olmayan kanalizasiya şəbəkəsinə birləşdirilməlidir.

6.20. Heyvan və quşların saxlanılması üçün bina və yerləşgələrdə peyinin təmizlənməsi və döşəmələrin yuyulması nəticəsində yaranan peyin tərkibli çirkab sularının toplanıb kənarlaşdırılmasını yerinə yetirən qurğuların layihələndirilməsi SQ № 1896-nın tələbləri əsasında aparılmalıdır.

6.21. Peyinin toplanıb kənarlaşdırılması sistemi heyvan və quşların saxlanıldığı yerləşgələrin, keçidlərin və hasarların təmizliyini təmin etməli, istismarı rahat olmalı və minimal xərclə onun xidməti, təmir və sanitariya-profilaktik təmizliyi təmin edilməlidir.

6.22. Peyinin kənarlaşdırılması və heyvandarlıq yerləşgələrindən kənara daşınması mexaniki və hidravlik üsullarla həyata keçirilməlidir.

Mexaniki üsullarla peyinin kənarlaşdırılması zamanı uzununa kanalların eni və dərinliyi tətbiq edilən mexaniki vasitələrin ölçülərinə uyğun olmalı və müvafiq olaraq 300 və 400 mm-dən az olmamalıdır.

Trapesiya en kəsikli kanallar layihələndirilərkən yan divarların maililik bucağı 60°-dən az olmamalıdır.

6.23. Peyinin kənarlaşdırılması üçün şnekli sistem uzununa və eninə kanallarda istifadə edilir. Uzununa kanalın həcmi peyinin iki sutkalıq miqdarının toplanması nəzərə alınmaqla qəbul edilir.

Şnekli transportyorlar üçün nəzərdə tutulan uzununa kanallar eni 500 mm-dən az olmayan metal barmaqlıqlarla örtülür. Uzununa və eninə şnekli transportyorların vintləri arasındakı hündürlük fərqi 150–200 mm olmalıdır. Kanalın yan divarlarının şaquli istiqamətə meyillik bucağı 23°-dən çox olmamalıdır. Kanalın dibinə şnekin diametrinə uyğun diametrli polad yarımdairəvi borudan hazırlanmış yerləşdirmə elementləri qoyulur.

6.24. Peyin hidravlik üsullarla kənarlaşdırılarkən boyuna kanalların eni və uzunluğu cədvəl 2 və 3 üzrə qəbul edilməlidir.

cədvəl 2

Heyvandarlıq yerləşgələrindən peyinin kənarlaşdırılması sistemi	Boyuna kanalların üst hissəsi üzrə minimum eni, m			
	iribuynuzlu mal-qara saxlanıldıqda		donuzlar qəfəslərdə qrup halında saxlanıldıqda	
	bağlı saxlandıqda	sərbəst saxlandıqda	süddən kəsilmiş çoşqaların və damazlıq cavan heyvanların	yetkin donuzların
Özaxımlı sistem:				
- fasiləsiz işləyən	0,8	1,5	0,7	0,9
- dövri işləyən	0,8	1,5	0,7	0,9
Hidroyuyulma sistemi	-	-	0,6	0,7

Qeyd. *Heyvanlar bütövlükdə barmaqlıqlı döşəmələrdə saxlanıldıqda, fasiləsiz işləyən özaxımlı sistem üçün boyuna kanalların üst hissəsi üzrə eni qrup halında heyvan saxlanılan blokların ölçüləri (heyvanların baş sayı) nəzərə alınmaqla aşağıdakı kimi qəbul edilməlidir:*

- *donuzların saxlanıldığı yerləşgələrdə - 2,4 m-ə qədər;*
- *inək tövlələrində - 3,5 m-ə qədər.*

cədvəl 3

Heyvandarlıq yerləşgələrindən peyinin kənarlaşdırılması sistemi	Boyuna kanalların maksimum uzunluğu, m			
	iribuynuzlu mal-qara saxlanıldıqda		donuzlar qəfəslərdə qrup halında saxlanıldıqda	
	bağlı saxlandıqda	sərbəst saxlandıqda	süddən kəsilmiş çoşqaların və damazlıq cavan heyvanların	yetkin donuzların
Özaxımlı sistem:				
- fasiləsiz işləyən	30	40	30	40
- dövri işləyən	30	50	30	40
Hidroyuyulma sistemi:		-	50	100
- dövri işləyən	30	50	30	40

7. İstilik təchizatı, isitmə sistemi, ventilyasiya və isti su təchizatı

7.1. Heyvandarlıq və quşçuluq binaları və yerləşgələrinin isitmə, ventilyasiya və havanın kondisiyalaşdırılması sistemləri bu bölmənin, AzDTN 2.12-2*-nin və SQ № 4542-nin tələblərinə əsasən layihələndirilməlidir.

7.2. Heyvandarlıq və quşçuluq binalarının isitmə və ventilyasiya sistemləri heyvanların və quşların yerləşdiyi zonalarda texnoloji layihələndirilmə normaları ilə tənzimlənən (texnoloji layihələndirmə üzrə metodik tövsiyələr) mikroiqlim parametrlərini (temperatur, nisbi rütubət, havanın hərəkət sürəti, onun qaz tərkibi, tozla və bakterioloji çirklənmə dərəcəsi, hava mübadiləsi intensivliyi) təmin etməlidir.

Bütün heyvandarlıq və quşçuluq binaları ventilyasiya ilə təchiz olunmalıdır. Bu binaların isidilməyə (soyudulmaya) ehtiyacının olub - olmaması, həmçinin isitmə (soyutma) və ventilyasiya sistemlərinin məhsuldarlığı daxili və xarici havanın verilmiş parametrləri, heyvan və quşlardan ayrılan istilik, rütubət və qazlardan (heyvan və quşlar böyüdükcə bu parametrlərdə gedən dəyişikliklər nəzərə alınmaqla), işləyən avadanlıqlardan ayrılan və günəş radiasiyasından yaranan istilik, qoruyucu konstruksiyalardan istilik itkisi, konstruksiyada qeyri-kiplikdən havanın infiltrasiyası ilə istilik itkisi nəzərə alınaraq, hesablama ilə müəyyən edilməlidir. Heyvanlar saxlanan sahələrin mikroiqliminin verilmiş parametrlərini, o cümlədən havanın soyudulmasını ventilyasiya ilə təmin etmək mümkün olmadıqda texnologiyanın tələblərinə əsasən heyvanların və quşların saxlanılması üçün yerləşgələrdə havanın parametrlərinin kondisionerlər vasitəsilə tənzimlənməsinə yol verilir.

7.3. İsitmə və ventilyasiya, isti su təchizatı və texnoloji tələbatlar üçün heyvandarlıq və quşçuluq binalarının istilik təchizatının istilik elektrik stansiyalarının istilik şəbəkəsindən və qazanxanalardan mərkəzləşdirilmiş qaydada nəzərdə tutulması tövsiyə olunur. Texniki və iqtisadi cəhətdən məqsədəuyğun olduqda digər istilik mənbələrindən (elektrik qızdırıcı qurğular, istilik generatorları və s.) istifadə edilməsinə yol verilir.

İstilikdaşıyıcısının temperaturu 150℃ qəbul olunmalıdır, əsaslandırma olduqda temperaturu 150℃-dən az olan buxar və suyun və ya digər istilikdaşıyıcısının istifadəsinə yol verilir.

7.4. İsitmə və ventilyasiya sistemləri layihələndirilərkən inzibati və məişət otaqlarında daxili havanın hesablama parametrləri TNvəQ 2.09.04 üzrə qəbul olunmalıdır.

Heyvanların və quşların saxlanıldığı əsas istehsalat yerləşgələrində isitmə və ventilyasiya sistemi layihələndirildikdə daxili havanın hesablama parametrləri müvafiq texnoloji layihələndirmə normalarına uyğun olaraq qəbul edilir.

7.5. Xarici havanın hesablama parametrləri AzDTN 2.12-2*-yə əsasən aşağıdakı kimi qəbul olunmalıdır:

- isitmə sistemləri, hava və hava-istilik pərdələri, həmçinin havanın kondisiyalaşdırılması sistemləri layihələndirildikdə B parametrləri;

- iribuynuzlu heyvanlar, donuzlar, südlük və ətlik keçilər, balalı anac dəvələr və quşlar üçün binalarda ilin ən soyuq beşgünlüyündə orta temperaturu mənfi 10℃-dən az olan rayonlarda mexaniki ventilyasiya sistemini və hava isitmə sistemini layihələndirdikdə - B parametrləri, orta temperaturu 10℃ və yuxarı olan rayonlarda layihələndirilən belə binalarda, həmçinin atlar və qoyunlar üçün binalarda - A parametrləri;

- ilin isti dövrü üçün mexaniki ventilyasiya sistemləri layihələndirildikdə - A parametrləri.

İsitmə, ventilyasiya və havanın kondisiyalaşdırılma sistemləri layihələndirildikdə il boyu isitmə-ventilyasiya avadanlıqlarının optimal iş rejimi nəzərdə tutulmalıdır. Bu halda xarici havanın temperaturunun 10℃ və aşağı olan aralıq göstəricilərində havanın nisbi rütubətliyi aşağıdakılara bərabər qəbul olunmalıdır:

- ən soyuq beşgünlükdə orta temperaturu mənfi 15℃-dən yuxarı olan rayonlar üçün - 85%;

- mənfi 15℃-dən mənfi 25℃-yə qədər - 80%;

- mənfi 25℃ və aşağı - 75%.

İri buynuzlu heyvanlar, donuz və quşlar üçün binalarda təbii ventilyasiya layihələndirildikdə xarici havanın hesablama temperaturu 5℃, at, keçi və qoyunlar üçün binalarda 2℃ qəbul olunmalıdır.

Qeyd. *İntensiv heyvandarlıq və quşçuluq müəssisələri layihələndirilərkən mikroiqlimin idarə olunması məqsədilə temperatur, nisbi rütubət, karbon qazı, ammonyak və digər qazların konsentrasiyasına nəzarəti təmin edən avtomatlaşdırılmış idarəetmə sistemlərinin (Smart Farming - Ağıllı kənd təsərrüfatı) tətbiqi nəzərə alınmalıdır.*

Heyvandarlıq və quşçuluq komplekslərində rəqəmsal idarəetmə sistemlərinin tətbiqinə dair tövsiyə olunan tələblər Əlavə 3-də verilmişdir.

7.6. Heyvandarlıq və quşçuluq binalarının isitmə və ventilyasiya sistemlərinin istilik gücü müəyyən edilərkən bu binalardakı qalın döşənəkdən istilik ayrılmaları, islanmış səthlərdən və döşənəkdən nəmin buxarlanması və xaricdən daxil olan yemlərin qızdırılmasına əlavə istilik itkiləri nəzərə alınmalıdır.

7.7. Heyvan və quşların saxlanıldığı binadaxili yerləşgələrdə istilik itkiləri istilik ayrılmaları ilə kompensasiya olunmadıqda məcburi ventilyasiya ilə birləşdirilmiş hava ilə isitmə sistemi nəzərdə tutulmalıdır.

İri buynuzlu heyvanların doğum bölmələrində, balaları ilə anac donuzların və cavan quşların saxlanıldığı yerləşgələrdə yerli isitmə cihazları ilə isitmə sisteminin tətbiqinə yol verilir.

Südəmər və körpə çoşqaların, həmçinin körpə quşların isidilməsi üçün lokal istilik sistemləri nəzərdə tutulmalıdır.

7.8. Layihələrdə təkrar istifadə oluna bilən yanacaq-enerji resurslarının istifadə səviyyəsinin artırılması, texnoloji aqreqatlarda istiliyin bərpasının (yenidən istifadə edilməsi) maksimal tətbiqi, istilik nasoslarının vasitəsilə aşağı potensiallı istiliyin istifadə edilməsi (utilizasiyası) üzrə tədbirlər nəzərdə tutulmalıdır.

7.9. Qızdırıcı cihazların səthlərinin temperaturu qəbul olunmalıdır:

a) döşəmədə quşların saxlanıldığı yerlərdə (sahələrdə) - 105℃-dən çox olmamaqla;

b) heyvanların və qəfəsdə quşların saxlanıldığı yerlərdə, həmçinin digər istehsalat otaqlarında - 150℃-yə qədər.

7.10. Qızdırıcı cihazlar, həmçinin isitmə və ventilyasiya sistemlərinin boru kəmərləri heyvanlar və quşlar üçün təması mümkün olmayan yerlərdə quraşdırılmalı və ya onların mühafizə çəpərləri olmalıdır. Bütün hallarda qızdırıcı cihazların və boru kəmərlərinin təmizlənmə və dezinfeksiyasının mümkünlüyü təmin olunmalıdır.

7.11. Heyvan və quşların saxlanılması üçün nəzərdə tutulmuş yerləşgələrdə hava mübadiləsi hesablama ilə müəyyən edilməlidir. Hesablama nəticəsində heyvanların saxlanıldığı zonalar üçün tikinti layihəsinin texnologiya bölməsində verilmiş mikroiqlim parametrləri və daxili havanın toz və bakteriyalarla yolverilən çirklənməsi təmin olunmalıdır.

***Qeyd**. Texnoloji layihələndirmə normalarında və ya baytarlıq-sanitariya tələblərində bir baş heyvana və ya bir vahid diri kütləyə (əsasən ilin soyuq dövründə) xarici havanın verilməsinin minimal həcmləri göstərildiyi hallarda zərərli maddələrin kənarlaşdırılması üçün hesablamalarla müəyyən edilən ventilasiya sistemlərinin məhsuldarlığı bu tələbləri də təmin etməlidir.*

7.12. İri buynuzlu heyvanlar qəfəsli döşəmədə saxlanıldıqda və döşəmənin altında peyinin saxlanılması üçün zirzəmi olduqda zirzəmidən və peyin kanallarından minimal hava mübadiləsinin hava həcminin azı 30%-ni sora bilən havasorucu qurğu nəzərdə tutulmalıdır.

Donuz və quşların saxlanılması üçün yerləşgələrdə minimal hava mübadiləsinin 50%-dən az olmayan həcmdə havanın aşağı zonadan sorulması (çıxarılması) nəzərdə tutulmalıdır. Bu halda donuzlar qəfəsli döşəmələrdə saxlanıldıqda zirzəmi və kanallardan göstərilən həcmdə sorulma təşkil olunmalıdır. Qoyun tövlələrində mülayim xarici hava şəraitində (ilin keçid dövründə) sorucu havalandırma (minimum hava mübadiləsinin 50%-dək hissəsi) pəncərəaltı ventilyatorlar vasitəsilə aşağı zonadan həyata keçirilməlidir.

Heyvandarlıq və quşçuluq müəssisələrinin yerləşgələrində hava paylayıcı sistemləri layihələndirildikdə hava şırnağının paylanmasının (yayılmasının) hesablanması aparılmalıdır. Heyvan və quşların yerləşmə zonasına girişində hava şırnağının hesablanan kəsiyində havanın temperaturu hesablamadan 2℃-dən çox fərqlənməməli və havanın hərəkət sürəti isə AzDTN 2.12-2*-də verilən göstəricilərə uyğun olmalıdır.

7.13. Heyvan və quşların saxlanılması üçün binalarda (bir yerləşgə hüdudunda) AzDTN 2.12-2* üzrə dövrü ventilyasiya sistemi ilə havanın təkrar dövr etdirilməsinin nəzərdə tutulmasına yol verilir.

7.14. Heyvandarlıq və quşçuluq binalarının isti su təchizatı AzDTN 2.11-3* üzrə layihələndirilməlidir.

Mərkəzləşdirilmiş isti su təchizatı sistemləri üçün suyun isidilməsi və emalı sxemləri AzDTN 2.12-1 və AzDTN 2.12-3 tələblərinə əsasən seçilməli, eləcə də sanitariya qaydaları SQ № 4723-ə uyğun nəzərə alınmalıdır.

8. Elektrotexniki qurğular

8.1. Elektrik qurğularının layihələndirilməsi “Elektrik qurğularının quraşdırılması Qaydaları”na müvafiq yerinə yetirilməlidir.

8.2. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarının əsas istehsalat yerləşgələrinin işıqlandırılması DTN 2.04-05 normativ sənədinin tələblərinə uyğun olaraq yerinə yetirilməlidir.

Qeyd. *“Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən közərmə lampalarının işıqlandırma məqsədilə istifadəsinə yol verilmir.*

8.3. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin elektrikqəbuledicilərinin kateqoriyaları və elektrik təchizatının etibarlılığı “Elektrik qurğularının quraşdırılması Qaydaları”na uyğun olaraq təmin edilməlidir.

8.4. Heyvanların saxlanılması üçün yerləşgələrdə onların elektrik təhlükəsizliyini təmin etmək məqsədilə elektrik potensiallarının bərabərləşdirilməsi “Elektrik qurğularının quraşdırılması Qaydaları”nın tələblərinə uyğun olaraq təmin edilməlidir.

8.5. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinın layihələrində nəzərdə tutulan elektrik avadanlıqları “Elektrik qurğularının quraşdırılması Qaydaları”nın tələblərinə cavab verməlidir.

9. Ətraf mühitin mühafizəsi

9.1. İstehsal həcmindən asılı olaraq heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin layihələndirməsində Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin, Azərbaycan Respublikasının Su Məcəlləsinin və “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun ətraf mühitin mühafizəsi üzrə qanunvericiliklə müəyyən edilmiş tələbləri nəzərə alınmalıdır.

9.2. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarının yerləşdiyi ərazinin açıq su mənbələrindən (çaylar, göllər) məsafəsi “Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları"nın, AzDTN 2.6-4-ün və baytarlıq-sanitariya norma və qaydalarının tələbləri əsasında müəyyən edilməlidir.

9.3. Heyvandarlıq və quşçuluq müəssisələrinin binaları layihələndirilərkən peyinin, gübrənin və peyin və gübrə tərkibli çirkab sularının ətraf mühiti və qrunt sularını çirkləndirməsinin qarşısının alınması, kənd təsərrüfatı torpaqlarında istifadəsi və ya üzvi gübrə istehsalına yönəldilməsi nəzərə alınmalıdır.

9.4. Heyvan dərisinin dezinfeksiyası üçün qurğular (çimizdirmə qurğusu və ya dezinfeksiya üçün meydança) dezinfeksiyaedici məhlulun çökdürücü çəninə (durulducuya) axıdılmasını təmin edən yerdə yerləşdirilməlidir.

9.5. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarını layihələndirərkən bu binalardan ventilyasiya ilə kənarlaşdırılan çirklənmiş havanın bina ətrafı hava mühitində yayılmasının hesablanması həyata keçirilməlidir.

9.6. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarından atmosferə atılan toz-qaz tullantılarının miqdarı "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununa və “Atmosfer havasına atılan zərərli maddələrin və ona zərərli fiziki təsirlərin dövlət uçotu Qaydaları" na uyğun olaraq müəyyən olunmalıdır.

9.7. Ərazinin baş planında binaların yerləşdirilməsi ərazinin küləklənməsi təmin edilməklə yerinə yetirilməlidir. Hakim küləklərin istiqaməti yaşayış məntəqələrindən əks istiqamətə yönəlməlidir. Bununla belə, bütün hallarda və ilin bütün dövrlərində sanitariya-mühafizə zonasının sərhədində atmosferə atılan çirkləndiricilərin konsentrasiyası ümumi konsentrasiya fonu ilə birlikdə yaşayış məntəqələrində atmosfer havası üçün müəyyən edilmiş göstəricilərdən artıq olmamalıdır.

Baş planda müxtəlif hündürlüklü binalar olduqda hündürlüyü daha az olan binalar külək tutan tərəfdə yerləşdirilməlidir.

10. Yanğından mühafizə tədbirləri

10.1. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və yerləşgələrinin həcm-planlaşdırma və konstruktiv həllərinin hazırlanması AzDTN 2.6-1*-in və DTN 2.02-01-in tələbləri üzrə, avtomatik yanğınsöndürmə qurğularının və yanğın siqnalizasiya sistemlərinin, yanğın xəbərvericilərinin layihələndirilməsi isə TNvəQ 2.04.09-un tələbləri nəzərə alınmaqla yerinə yetirilməlidir.

10.2. Heyvandarlıq və quşçuluq müəssisələrinin binalarında (istehsalatın V və D kateqoriyaları üzrə) aşağıdakılara yol verilir:

- II odadavamlılıq dərəcəli birmərtəbəli çardaqsız binalarda-DTN 2.02-01 üzrə odadavamlılıq və oddan mühafizə hədlərinə malik ağac konstruksiyalara;

- III və IV odadavamlılıq dərəcəli birmərtəbəli binalarda-alovlanmadan mühafizəsi olmayan en kəsiyi hesablama ilə təyin olunan, lakin yuxarı kəsiyinin diametri 160 mm-dən və ya ölçüləri 180 x 180 mm-dən az olmayan daxili ağac dayaqlara (sütunlara);

- istənilən odadavamlılıq dərəcəli binalarda - yanar materiallardan frontonlar və çardaqrarası örtüklərinin istilikizolyasiya materialları;

- IV odadavamlılıq dərəcəli binalarda - yanar materiallardan çardaq örtükləri;

- yay düşərgələrində və mal-qaranın köçürüldüyü otlaqlarda yerləşən binalarda-yerli inşaat materiallarından (qamış, saman və s.) hazırlanmış damlara.

10.3. Qaba yemlərin (saman, quru ot) və alışa bilən döşənəyin saxlanılması üçün nəzərdə tutulmuş çardağı olan ixtiyari odadavamlılıq dərəcəli heyvandarlıq və quşçuluq binaları layihələndirildikdə aşağıdakılar nəzərə alınmalıdır:

- yanmayan materiallardan damlar;

- çardaqdakı elektrik naqillərinin mexaniki zədələnmələrdən mühafizəsi;

- ağac materiallarından çardaq örtüklərinin çardaq yerləşgəsi tərəfdən alovlanmadan qorunmasının yanar istilikizolyasiya materialının üzərinə qalınlığı 20 mm olan gil suvağının (və ya ona bərabər odadavamlı mühafizə vasitəsinin) çəkilməsi və ya yanmayan istilikizolyasiya materialının tətbiqi;

- çardaq örtüklərində (çardağa yem və döşənəyin ötürülməsi üçün) II və III odadavamlılıq dərəcəli binalarda odadavamlılıq həddi R45 və IV odadavamlılıq dərəcəli binalarda odadavamlılıq həddi R15 olan bacaların quraşdırılması.

10.4. Heyvandarlıq və quşçuluq binalarının daxilində və ya onlara bitişik yerləşdirilmiş partlayış-yanğın və ya yanğın təhlükəli istehsalatların ayrıca yerləşdiyi yerləşgələrin (otaqlar, sahələr) və qaba yem ehtiyatının saxlanılması üçün anbarların bilavasitə xaricə çıxışı olmalıdır. Bu yerləşgələr binanın digər yerləşgələrindən odadavamlılıq həddi azı R60 və alovun yayılma həddi 40 sm-dən çox olmayan divar və ya arakəsmələrlə, həmçinin odadavamlılıq həddi azı R45 və alovun yayılma həddi 25 sm-dən çox olmayan örtüklərlə ayrılmalı və birbaşa xaricə çıxışa malik olmalıdır.

Qaba yemlərin, inventarın və döşənəyin cari ehtiyatlarının saxlanıldığı sahə və yerləşgələrdən digər yerləşgələrə çıxışın təşkil edilməsinə yol verilir. Göstərilən divarlardakı (arakəsmələrdəki) boşluqların (qapıların, darvazaların və texnoloji boşluqların) doldurulması yanmayan və ya çətin yanan materiallardan yerinə yetirilməli və qapı və darvazalar öz-özünəqapanma qurğuları ilə təchiz edilməlidir.

10.5. İnsanların heyvandarlıq və quşçuluq müəssisələrinin binalarından təxliyə yolları DTN 2.02-01 və AzDTN 2.8-2 üzrə nəzərdə tutulmalıdır.

İnsanların təxliyəsi üçün qapılı və siyirməli darvazalarda binadan çıxış istiqamətində açılan kiçik qapı (kandarsız və ya hündürlüyü 0,1 m-dən çox olmayan kandarla) nəzərdə tutulmasına yol verilir.

Bina və yerləşgələrdən (heyvanların saxlanılması üçün sahələr, yerlər, tövlələr) heyvanlar və quşlar üçün çıxışlar texnoloji tələblər üzrə müəyyən edilir (bu çıxışlar DTN 2.02-

01-ə müvafiq olaraq təxliyə çıxışlarına qoyulan tələblərə cavab verdiyi halda) və insanlar üçün təxliyə çıxışlarının hesablanmasında bu çıxışların nəzərə alınmasına yol verilir.

Heyvan və quşların saxlandığı binalarda qapı və darvazalar təxliyə istiqamətində açılmalı və onların qarşısında maneəsiz hərəkət zonası təmin edilməlidir. Heyvan və quşların təxliyəsinə, sürətli çıxarılmasına imkan verən planlaşdırma həlləri (xüsusi yönləndirici keçidlər, bölmələr və təhlükəsiz toplama sahələri), eləcə də bölmələrə ayrılmış binalarda hər bölmədən birbaşa xaricə və ya təhlükəsiz zonaya çıxışı təmin edən ən azı iki müstəqil təxliyə marşrutu nəzərdə tutulmalıdır. Quşçuluq müəssisələrində quşların təxliyəsi üçün istifadə olunan keçidlər, qəfəslər, konteynerlər və digər vasitələr quşların sıxlıq səbəbindən zədələnməsinin və tələfatının qarşısını alacaq şəkildə layihələndirilməlidir.

İstehsalat təyinatlı binalardan çıxışın (qapının) eni hər 1 m-ə düşən təxliyə olunan heyvanların (quşların) sayından asılı olaraq qəbul olunmalıdır.

10.6. İşıq və ya işıq-aerasiya fənərləri olmayan yerləşgələrdən tüstünün kənarlaşdırılması AzDTN 2.12-2*-nin tələbləri üzrə nəzərdə tutulmalıdır. Bu halda yanğın zamanı sorucu şaxtaların avtomatik açılma qurğusu tələb olunmur.

10.7. Partlayış təhlükəsi olan yerləşgələrdə havada buxarların və tozların partlayış təhlükəli konsentrasiyaların yaranması barədə xəbərdarlıq edən avtomatik siqnalizasiya sistemi nəzərdə tutulmalıdır.

10.8. Heyvandarlıq və quşçuluq müəssisələrinin binaları üçün yanğın bölməsi hüdudlarında binanın odadavamlılıq dərəcəsi, konstruktiv yanğın təhlükəliyi sinfi, hündürlüyü, mərtəbə sahəsi və yanğınəleyhinə divarlar arasında mərtəbənin odadavamlılıq dərəcəsi və sahəsi DTN 2.02-01 tələbləri üzrə qəbul olunmalıdır.

Əlavə 1

(tövsiyə olunan)

Avtomat suvatlar vasitəsilə heyvanların suvarılması üçün su sərfinin hesablanması

Avtomat suvatlar vasitəsilə heyvanların suvarılması üçün (P) hesablama su sərfi aşağıdakı düsturla təyin olunur:

$$P = P_u \cdot n\ ,\ l/san \qquad (1.1)$$

Burada

P_u - heyvanların suvarılma intensivliyi, l/san (cədvəl 1.1 üzrə qəbul olunur);

n - şəbəkənin hesablama sahəsində quraşdırılmış avtomat suvatların (n_0) sayından və onların aşağıdakı düsturla müəyyən edilən (B) işləmə ehtimalından asılı olaraq cədvəl 1.2 üzrə qəbul edilən, şəbəkənin hesablama sahəsində eyni vaxtda işləyən avtomat suvatların sayı.

(B) aşağıdakı düsturla müəyyən edilir:

$$B = \frac{P_{sut} \cdot K_s \cdot C}{86400 P_u} \qquad (1.2)$$

Burada

P_{sut} - bir heyvanın suvarılması üçün su sərfi, $l/sutka$, texnoloji layihələndirmə normalarına uyğun olaraq qəbul edilir;

K_s - saatlıq qeyri-bərabərlik əmsalı, texnoloji layihələndirmə normalarına uyğun olaraq qəbul edilir;

C - şəbəkənin hesablama sahəsində quraşdırılmış bir avtomat suvata düşən heyvanların sayı.

Cədvəl 1.1

Heyvanların növləri və cinsiyyət-yaş qrupları	Avtomat suvatdan heyvanların suvarılmasının intensivliyi, $P_u, l/san$
1. İri buynuzlu heyvan:	
a) südlük və ətlik inəklər	0,1
b) buğalar və düyələr	0,07
c) cavan heyvanlar	0,05
2. Donuzlar:	
a) bala əmizdirən anac donuzlar balaları ilə	0,04

b) boğaz və subay anac donuzlar, qabanlar, kökəlmədə olan donuzlar, ehtiyatda saxlanan cavan donuzlar	0,03
3. Atlar, dəvələr: a) yaşlı b) cavan	 0,1 0,05
4. Qoyunlar, keçilər: a) yaşlı b) cavan	 0,025 0,015
Qeyd. *Heyvanlar axar su suvatlarıyla suvarıldıqda və digər növ suvatlarla (avtomat suvatlar istisna olmaqla) hesablama su sərfi Əlavə 2 üzrə müəyyən edilməlidir.*	

Cədvəl 1.2

$n_0 \cdot B$	n
0,015	1
0,15	2
0,39	3
0,7	4
1,08	5
1,47	6
1,9	7
2,4	8
2,9	9
3,5	10
3,9	11
4,6	12
5,2	13
5,7	14
6,3	15
7	16
7,6	17
8,2	18

8,9	19
9,6	20
11	22
12,4	24
13,8	26
15,2	28
16,8	7
18,2	7,6
19,6	34
21	36
23	38
24,4	40
26	42
27,5	44
29	46
30,5	48
32,5	50
36,5	55
40,5	60
44,5	65
48,5	70
53	75
57	80
61	85
66	90
70	95
75	100
83	110
92	120
100	130

110	140
118	150
127	160
136	170
145	180
154	190
163	200

Əlavə 2
(tövsiyə olunan)

Xüsusi cihazlarla su sərfi və onların eyni vaxtda işləmə faizi

Cihaz	Su sərfi, l/san	Eyni vaxtda işləmə %
1. Quşlar üçün axarlı (novşəkilli) suvat	0,05	100
2. Naxırbulağı suvatların doldurulması və digər tipli suvatlar üçün kran (*avtomat suvatlar istisna olmaqla)*	0,3	100-bir kranla; 50-iki və ya daha çox kranla
3. Döşəmələrin yuyulması üçün kran	0,5	"Texnoloji həllər" layihəsi üzrə
4. Heyvanın yelinin yuyulması üçün tor	0,07	100
Qeyd. *Texnoloji avadanlıqlarla su sərfi (xüsusi yuyucu maşınlarla, soyuducu cihazlarla və s.) layihənin texnoloji hissəsi üzrə qəbul olunmalıdır.*		

Əlavə 3
(tövsiyə olunan)

Heyvandarlıq və quşçuluq komplekslərində rəqəmsal idarəetmə sistemlərinin tətbiqinə dair tələblər

3.1. Quşçuluq komplekslərində mikroiqlimə nəzarət sistemləri ammonyak (NH_3), karbon qazı (CO_2) və hidrogen-sulfid (H_2S) konsentrasiyalarının fasiləsiz monitorinqini təmin etməlidir. Qazların konsentrasiyasının yol verilən hədlərə uyğunluğu müəyyənləşdirilərək kalibrasiya edilməli və avtomatlaşdırılmalıdır.

3.2. İstilik stresi riski olan heyvandarlıq və quşçuluq obyektlərində temperatur-rütubət indeksinin avtomatik hesablanması təmin edilməlidir. Temperatur-rütubət indeksinin müəyyən edilmiş normativ hədləri aşdığı hallarda dumanlandırma, evaporativ soyutma, tunel ventilyasiyası və ya digər soyutma sistemləri avtomatik işə salınmalıdır.

3.3. Heyvandarlıq və quşçuluq müəssisələrinin bina və qurğularında işıqlandırma sistemləri enerji səmərəliliyi tələbləri nəzərə alınmaqla layihələndirilməli və avtomatlaşdırılmış işıqlandırma sistemlərinin tətbiqi nəzərdə tutulmalıdır.

İşıqlandırma sistemləri quşların yaş qruplarına, məhsuldarlıq istiqamətinə və texnoloji saxlanma rejiminə uyğun olaraq işıq selinin intensivliyini və spektral tərkibini tənzimləməlidir. İşıqlandırma sistemlərində heyvan və quşların davranışına mənfi təsir göstərə bilən işıq titrəməsinin (stroboskopik effektin) yaranmasına yol verilməməlidir.

3.4. Su təchizatı sistemləri su sərfiyyatının fasiləsiz uçotunu təmin edən rəqəmsal sərfiyyat ölçənlərlə təchiz edilməlidir. Su sərfiyyatında normadan kənar dəyişikliklər aşkar edildikdə sistem avtomatik xəbərdarlıq verməlidir.

MÜNDƏRİCAT

1. Tətbiq sahəsi …….. 1
2. Normativ istinadlar …….. 1
3. Əsas anlayışlar ……... 3
4. Ümumi müddəalar ……... 4
5. Həcmi planlaşdırma və konstruktiv həllər..... 5
6. Su kəməri və kanalizasiya..... 9
7. İstilik təchizatı, isidilmə, havalandırma və istisu təchizatı..... 14
8. Elektrotexniki qurğular..... 17
9. Ətraf mühitin mühafizəsi..... 17
10. Yanğından mühafizə tədbirləri……..... 18

Əlavə1 Avtomat suvatlar vasitəsilə heyvanların suvarılması üçün su sərfinin hesablanması..... 21

Əlavə 2 Xüsusi cihazlarla su sərfi və onların eyni vaxtda işləmə faizi..... 25

Əlavə 3 *Heyvandarlıq və quşçuluq komplekslərində rəqəmsal idarəetmə sistemlərinin tətbiqinə dair tələblər*..... 25